Aprelin 15-də Təhsil Nazirliyində "Ən yaxşı müəllim" müsabiqəsinin II mərhələsi ilə bağlı fənn komissiyalarının üzvləri ilə görüş keçirilib.

Görüşü təhsil naziri Misir Mərdanov açaraq ölkə başçısı cənab İlham Əliyevin 4 sentyabr 2007-ci il tarixli Sərəncamına əsasən "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" müsabiqələrinin keçirilməsi ilə bağlı ötən müddət ərzində lazımı təşkilatı işlərin görüldüyünü qeyd edib. Nazir görüş iştirakçılarının diqqətinə "Ən yaxşı müəllim" müsabiqəsi ilə üzrə məlumatları çatdıraraq bildirib ki, bu müsabiqədə iştirak etmək üçün Təşkilat Komitəsinə müraciət edən 393 nəfərdən 208-i növbəti mərhələyə buraxılıb.

Misir Mərdanov həmin müəllimlərin sınaq dərsi deyəcəklərini, dinləniləcək dərslərin qiymətləndirilməsi meyarlarının da artıq müəyyən edildiyini bildirib. Eyni zamanda dinləniləcək sınaq dərslərinin müəyyən edilmiş 12 meyar əsasında maksimum 10 balla dəyərləndirilməsinin nəzərdə tutulduğunu diqqətə çatdırıb. Nazir, həmçinin fənn komissiyaları üzvlərinə işə olduqca məsuliyyətli yanaşmağı və diqqətli olmağı tövsiyə edib.

Tədbirdə sınaq dərslərinin dinlənilməsi və bununla bağlı digər məsələlər haqqında müvafiq suallar cavablandırılıb.